# AVİADAŞIYICILARIN ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

**Bakı - 2012**

# AVİADAŞIYICILARIN ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI QAYDALARI

## 1. ƏSAS MÜDDƏALAR

1.1. Aviadaşıyıcının mülki məsuliyyəti kimi hava gəmisinin istismarı nəticəsində fiziki və hüquqi şəxslərə vurulmuş ziyanın əvəzinin Qanuna müvafiq olaraq və ya məhkəmənin qərarı ilə ödənilməsi üzrə hava gəmisinin sahibinin və ya istismarçısının vəzifəsi başa düşülür.

1.2. Hazırki Qaydalar və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi əsasında «Meqa Sığorta» Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Sığortaçı adlandırılır) hüquqi və fiziki şəxslərlə (bundan sonra Sığortalı adlandırılır) aviadaşıyıcının mülki məsuliyyətinin sığortalanması müqavilələri bağlayır.

1.3 Bu Qaydalar üzrə müəyyən olunan «Aviadaşıyıcıların mülki məsuliyyətinin sığortası» növü hava nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin sığortası sinifinə aid edilir.

1.4. Hazırki qaydalara müvafiq olaraq sığorta obyekti hava gəmisinin istismarı prosesində Sığortalının fiziki şəxsin həyat və sağlamlığına və ya əmlakına, və həmçinin hüquqi şəxsin əmlakına vurduğu ziyanı mülki qanunvericiliyin müəyyən etdiyi qaydada ödəmək üzrə Sığortalının vəzifəsi ilə əlaqədar olan Sığortalının əmlak marağıdır. Sığortaçı, sığorta müqaviləsinə müvafiq olaraq, öhdəlik götürür ki, sadalanan risklərin reallaşması nəticəsində sığorta müqaviləsində göstərilən həddlər daxilində və göstərilən məbləğlərdən çox olmamaq şərti ilə sığorta ödənişini təmin etsin.

1.5. Sığortaçının hər hansı ödəniş etməsi üzrə vəzifəsinin icrasının başlanmasının zəruri şərtləri - uçuş, texniki və xidmət heyəti tərəfindən hava gəmisinin aeronaviqasiyası, texniki istismarı və ona xidmət göstərilməsi üzrə tələblərin gözlənilməsi və həmçinin, hava gəmisinin təhlükəsiz istismarına və hava hərəkətinin idarə edilməsinə aid olan və səlahiyyətli təşkilatların istənilən vəzifəli şəxslərinin verdiyi göstərişlərinin yerinə yetirilməsidir.

Sığortalı hər bir uçuşa istismara yararlı olan, saz hava gəmisinin buraxılmasını təmin etməli və həmçinin, qüvvədə olan qaydalara müvafiq olaraq hava gəmisi üçün tələb edilən bütün sənədləri sistematik olaraq hazırlamalı və Sığortaçının tələbi ilə onları Sığortaçıya (onun nümayəndəsinə) təqdim etməlidir.

1.6. Sığorta ödənişinin ödənilməsi üzrə Sığortaçıya tələb təqdim edilməsi hüququ qanunvericiliklə müəyyən edildiyi müddətdə quvvədə olur.

1.7. Sığortaçının məsuliyyəti, əgər Sığortalı fiziki şəxsdirsə, Sığortalının ailə üzvlərinə ziyan vurulması hallarına aid edilmir.

## 2. SIĞORTA RİSKLƏRİ VƏ SIĞORTA TƏMİNATI NÖVLƏRİ

2.1. Sığorta hadisəsi - üçüncü şəxslər tərəfindən Sığortalıya, Sığorta müqaviləsində göstərilən hava gəmisinin istismarı nəticəsində onlara dəyən ziyanın əvəzini ödənilməsi barədə iddiaların təqdim edilməsi faktıdır. Sığortaçının məsuliyyətinin həcmi Sığortalının seçdiyi sığorta əhatəsi növü ilə müəyyən edilir:

a) aviadaşıyıcının üçüncü şəxslər qarşısında mülki məsuliyyəti (sərnişinlər və yük sahibləri istisna edilməklə);

b) aviadaşıyıcının sərnişinlər qarşısında mülki məsuliyyəti;

c) aviadaşıyıcının yük sahibi qarşısında (yükə görə) mülki məsuliyyəti;

ç) aviadaşıyıcının 2.1.a)-2.1.c) bəndlərinin istənilən kombinasiyası üzrə mülki məsuliyyəti.

2.2 Sığortaçı hazırki Qaydalarda və qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinin qüvvədə olması müddətində baş verən bütün hadisələr üzrə məsuliyyət daşıyır, bu zaman sığorta müqaviləsi sayı vahiddən çox olan hava gəmilərinin istsmarı zamanı məsuliyyətin sığortasını nəzərdə tuta bilər. Bu halda hazırki qaydaların müddəaları hər bir hava gəmisinə ayrı–ayrılıqda tətbiq edilir.

2.3. Standart sığorta təminatı aşağıdakı 2.4 və 2.5 bəndlərində göstərilən hallar istisna olmaqla, hava gəmisinin təyinatına uyğun olaraq, icazə verilmiş marşrutla yük və sərnişin daşınmaları üçün hava gəmilərinin uçuşlarının yerinə yetirilməsi zamanı risklərin sığorta təminatını nəzərdə tutur.

2.4. Əlavə sığorta təminatı hava gəmisinin xüsusi istifadəsi ilə əlaqədar ortaya çıxan risklərin sığorta təminatını nəzərdə tutur:

a) artmış təhlükə ilə əlaqədar olan xüsusi uçuşların: sınaq məqsədli rekordların müəyyən edilməsi, aviasiya texnikasının nümayişi, uçuş heyətinin təlimi, patrul xidmətinin yerinə yetirilməsi, yanğınlarla mübarizə, hava gəmisindən nəyinsə səpilməsi və s. yerinə yetirilməsi zamanı;

b) hava gəmisinin istənilən daşınma vasitəsinin köməkliyi ilə nəql edilməsi, aeroport sərhədləri daxilində buksirləmə istisna edilməklə.

Bu halda müqavilədə sığorta təminatının «Xüsusi şərtlər»i bölməsində müvafiq əlavələr edilməlidir.

2.5. Sığortanın xüsusi şərtləri küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi (AVN.46B), müharibə, qaçırma və digər aviasiya təhlükələri (müddəa – AVN. 48B) və radiasiyanın və radioaktiv çirklənmənin (müddəa – AVN. 38A) təsirinə aid olan risklərin sığorta əhatəsini nəzərdə tutur ki, bunlar hazırki Qaydalarla əsas və ya əlavə şərtlər üzrə sığortalama zamanı əhatə edilmiş risklər siyahısından istisna edilmişlər.

Hava gəmisinin sığortasının xüsusi şərtləri Müqavilənin xüsusi şərtlərinə daxil edilirlər və Sığortaçının informasiya təminatının xüsusi rejimində qüvvədə olurlar.

## 3. SIĞORTA ŞƏRTLƏRİ

3.1. Aviadaşıyıcının üçüncü şəxslər qarşısındakı (sərnişinlər və yük istisna edilməklə) mülki məsuliyyətinin sığortalanması şərtləri.

3.1.1. Sığortaçı öhdəlik götürür ki, Sığortalının, Qanuna və ya məhkəmənin qərarına uyğun olaraq, üçüncü şəxslərə (sərnişinlər və yük sahibləri istisna edilməklə) sağlamlığa ziyan vurulması (bədən xəsarəti, həlak olma (ölüm) və yaralanma) və əmlaka ziyan vurulması üçün, əgər bu cür ziyan hava gəmisi və ya hava gəmisindən düşən əşya vasitəsi ilə vurulmuşdursa, sığorta ödənişi etməsi nəticəsində çəkdiyi xərcləri ödəsin.

3.1.2. Sığortaçı aşağıdaki şəxslərin sağlamlığı (cismani zədə, həlak olma (ölüm) və yaralanma) və əmlakına dəyən ziyanla əlaqədar olaraq Sığortalıya qarşı verilən iddialar üzrə məsuliyyət daşımır:

a) Sığortalının istənilən qulluqçusuna və ya onun iş tərəfdaşlarından birinə onlar tərəfindən Sığortalı ilə iş üzrə öz öhdəliklərinin yerinə yetirdiyi müddətdə;
b) uçuş və ya xidmətedici ekipajın və ya texniki heyətin istənilən üzvünə, onların hava gəmisinin istismarı ilə əlaqədar olaraq öz vəzifələrinin yerinə yetirilməsi vaxtı;
c) hava gəmisinin göyərtəsində olduqda və ya minmə və düşmə zamanı istənilən sərnişinə;
ç) Sığortalıya mənsub olan və ya ona tapşırılmış, və ya Sığortalının sərəncamında olan istənilən mülkiyyətə.

3.1.3. Sığortaçı birbaşa və ya dolayı yolla aşağıdakılarla əlaqədar olan və sığortalıya qarşı qaldırılmış iddialar üzrə məsuliyyət daşımır:
a) küylə (insan qulağının hiss etdiyi və ya hiss etmədiyi), vibrasiya ilə, səs zədəsi ilə və buna bənzər digər hadisələrdə;
b) mühitin hər hansı çirklənməsi ilə;
v) küyün, çirklənmənin və digər təhlükələrin istisna edilməsi barədə müddəa AVN. 46B (hazırki Qaydalara əlavə1) tərəfindən istisna edilmiş elektrik və elektromaqnit maneələrlə.
q) Sığortalıya qarşı qaldırılmış iddialar aviasiya bədbəxt hadisəsi (partlayış, təyyarənin yerə düşməsi, toqquşma) və ya uçuş zamanı uçuş registratoru tərəfindən hava gəmisinin qeyri-normal istismarının səbəbi olan qəza vəziyyətinin qeydə alınması nəticəsində dəyən ziyanla əlaqədar olaraq verilən iddialar halı istisna olunmaqla, mülkiyyət hüquqlarının pozulması ilə.

3.2. Aviadaşıyıcının sərnişinlər qarşısında mülki məsuliyyətinin sığortalanması şərtləri.

3.2.1. Sığortaçı öhdəlik götürür ki, aşağıdakı hallarda Qanuna və müqaviləyə müvafiq olaraq Sığortalının ödəniş etməli olduğu sərnişinə dəymiş ziyan üçün Sığortalının çəkdiyi xərcləri Sığortalıya ödəyəcəkdir:
a) hava gəmisinin sərnişinlərinə bu gəminin bortunda olduqları zaman və həmçinin, minmə və düşmə zamanı bədən xəsarəti yetirilməsi, onların həlak olması (ölməsi) və yaralanması.
b) hava gəmisi ilə qəfil hadisə baş verməsi nəticəsində sərnişinlərin baqajının və/və ya əllə aparılan yüklərinin itirilməsi və ya zədələnməsi.

3.2.2. Yalnız aviadaşıyıcının sərnişinlər qarşısında məsuliyyətinin sığortalanmasına tətbiq edilən istisnalar.

Sığortaçı aşağıdaki şəxslərin sağlamlığına (bədən xəsarətləri, həlak olma (ölüm) və yaralanma) və əmlakına vurulmuş ziyanla əlaqədar olaraq Sığortalıya qarşı verilmiş iddia üzrə məsuliyyət daşımır:
a) Sığortalının istənilən işçisinə və ya onun işgüzar tərəfdaşlarına onun məşğul olması zamanı və bunun nəticəsində və ya Sığortalı ilə istənilən razılaşma ilə onun öz öhdəliklərinin yerinə yetirilməsi zamanı;
b) hava gəmisinin istismarı ilə əlaqədar olaraq öz vəzifələrinin yerinə yetirilməsi zamanı uçuş və ya xidmət ekipajının və ya Sığortalının texniki heyətinin istənilən üzvünə;

3.2.3. Baxılan bölmə üzrə («3.2. Aviadaşıyıcının sərnişinlər qarşısında mülki məsuliyyətinin sığortalanması şərtləri») Sığortaçının məsuliyyətinin başlanmasının zəruri şərtləri:

a) sərnişinlərin minməsindən əvvəl Sığortalı borcludur ki, aviadaşıyıcının sərnişinlər qarşısındaki qanunvericilik tərəfindən müəyyən edilmiş məsuliyyətindən artıq olan və 3.2.1.a. və 3.2.1.b. bəndlərindən irəli gələn Sığortaçının məsuliyyətini aradan göturmək və ya azaltmaq uçun bütün zəruri olan tədbirləri görsün;

b) Əgər 3.2.3. a) bəndinə müvafiq olaraq görülən tədbirlərə sərnişinə bilet və baqaj qəbzi verilməsi daxildirsə, bunlar lazımi qaydada rəsmiləşdirilməli və sərnişin hava gəmisinə minməmişdən əvvəl ona verilməlidir;

c) Əgər Sığortalı bu qaydaların 3.2.3 bəndinin a) və b) şərtlərini yerinə yetirə bilməsə, Sığortaçının məsuliyyətinin limiti onun Qanunla müəyyən edilən mövcud olan məsuliyyətini aşmayacaqdır və bu məsuliyyət Sığortalı tərəfindən yuxarıda göstərilən şərtlərin yerinə yetirilməsindən asılı olmayaraq mövcuddur.

3.3. Aviadaşıyıcının yük sahibinin qarşısında (yukə görə) mülki məsuliyyətinin sığortalanması şərtləri.

3.3.1. Sığortaçı aşağıdaki hallarda Sığortalının Qanuna və ya müqaviləyə görə əvəz ödəməli olduğu ziyan üçün yük sahibinə verilən kompensasiya nəticəsində Sığortalının çəkdiyi xərcləri ödəməyi öz öhdəsinə götürür:

a) hava gəmisi ilə daşınma üçün bağlanmış müqavilə üzrə Sığortalının məsuliyyət daşıdığı əmlaka (yükə) ziyan vurulması, və ya

b) bu cür müqavilə mövcud olmadıqda, əmlak (yük) hava gəmisində olarkən, və ya hava gəmisinə yükləmə (yükün boşaldılması) zamanı əmlaka (yükə) ziyan vurulması; bu zaman bu əmlakın (yükün) dəyərinin təyin edilmiş limitdən artıq olması haqda xüsusi bəyannamə tərtib edilir.

3.3.2. Göstərilən sığorta ödənişi sığorta müqaviləsində nəzərdə tutulmuş məsuliyyət limitinə və azadolma məbdəğinə müvafiq olaraq ödənilir.

3.3.3. Hazırki bölmə üzrə («3.3. Aviadaşıyıcının yük sahibləri qarşısında (yük üçün) mülki məsuliyyətinin sığortalanması şərtləri») Sığortaçının məsuliyyətinin yaranması şərtləri:

a) Sığortalı yükün yüklənməsindən əvvəl bütün zəruri olan tədbirləri görməlidir ki, aviadaşıyıcının yük üçün qanunla müəyyən edilmiş məsuliyyətindən yüksək olan və 3.3.1. a) və 3.3.1. b) bəndlərindən irəli gələn Sığortaçının məsuliyyətini aradan götürsün və ya azaltsın;

b) Əgər 3.3.3. a) bəndinə müvafiq olaraq görülən tədbirlərə yük sahibinə yük qaiməsinin və ya digər sənədlərin verilməsi daxildirsə, bu cür sənədlər lazımı qaydada rəsmiləşdirilməli və yükün hava gəmisinə yüklənməsindən əvvəl yük sahibinə verilməlidir;

c) Əgər Sığortalı bu Qaydaların 3.3.3 bəndinin a) və b) şərtlərini ödəyə bilmirsə, Sığortaçının məsuliyyət limiti onun Qanun üzrə mövcud məsuliyyətini aşmayacaqdır və bu məsuliyyət Sığortalı tərəfindən yuxarıda göstərilmiş şərtlərin yerinə yetirməsindən asılı olmayaraq mövcuddur.

3.3.4. Yalnız aviadaşıyıcının yük sahibi qarşısında məsuliyyətinin sığortalanmasına tətbiq edilən istisnalar.

Sığortaçı aşağıdakı hallarda əmlaka dəyən ziyanla əlaqədar olaraq Sığortalıya qarşı verilən iddialar üzrə məsuliyyət daşımır:

a) istənilən sərnişinin əmlakı;

b) yükün məhv olmasına və ya xarab olmasına (quruma, nəmlənmə, çürümə, öz-özünə alışma və s.) gətirib çıxaran temperaturun, nəmliyin, və ya yükün xüsusi xassələrinin və təbii keyfiyyətlərinin təsiri nəticəsində;

v) yükün xarici qablaşdırılmasının bütövlüyü şərti daxilində yükün çatışmazlığı;

q) qurdlar, gəmiricilər, həşəratların təsiri ilə zədələnmə;

d) yükün hava gəmisinə yükləmə yerinə çatdırarkən və hava gəmisindən boşaltdıqdan sonra;

e) daşınılan yükün qiymətinin itməsi nəticəsində.

3.4. Məsuliyyət və azadolma məbdəğinin limitləri.

3.4.1. Sığorta müqaviləsi ilə aşağıdakılar müəyyən edilə bilərlər:

a) Sığorta müqaviləsinin bütün qüvvədə olma müddəti ərzində bütün sığorta halları üzrə icra edilmiş bütün sığorta ödənişlərinin cəmi məsuliyyətin cəmi limitindən çox ola bilməz.

b) baş vermiş hadisə nəticəsində hər bir sığorta hadisəsi və ya hadisələri üçün məsuliyyət limitləri.

3.4.2. Məsuliyyət limitləri konkret sığorta müqavilələri ilə təyin edilirlər. Bir baş vermiş hadisə nəticəsində bir sığorta hadisəsi və ya hadisələri üzrə sığorta ödənişləri sığorta müqaviləsində müəyyən edilmiş məsuliyyət limitlərini aşa bilməz.

3.4.3. Sığortaçı sığorta müqaviləsində müəyyən edilmiş məsuliyyət limiti hədləri daxilində, ona təqdim edilmiş tələblərin azad edilməsi və ya azaldılması məqsədilə, onun razılığı ilə Sığortalı tərəfindən icra edilən bütün xərcləri ödəyəcəkdir.

3.4.4. Sığortaçı sığorta müqaviləsində müəyyən edilmiş məsuliyyət limiti daxilində Sığortalıya, həmçinin, aşağıdaki xərcləri ödəyir:

a) ziyan vurulması haqda işlər üzrə məhkəmə xərcləri;

b) sığorta hadisəsi üzrə ziyanların azaldılması üçün butun əsaslandırılmış xərclər.

3.4.5. Əgər ödənilməli olan ziyanın məbləği məsuliyyətin cəm limitindən çoxdursa, bu halda 3.4.4. bəndində göstərilmiş məsrəflər və xərclər həmin ziyanın məbləğinin cəm limitin məbləğinə olan nisbətinə bərabər olan nisbətlə ödənilir.

3.4.6. Sığorta müqaviləsi ilə aşağıdakılar üçün ayrı-ayrı məsuliyyət limitləri müəyyən edilə bilər:

a) Sığorta müddəti ərzində bir və ya bər neçə bədbəxt hadisə üzrə bir və ya bir neçə şəxsin hər birinə və ya butun şəxslərin cəm halında sağlamlığına ziyan dəyməsi (bədən xəsarəti, ölümcül və ya digər yaralanma).

b) bir və ya bir neçə şəxsin hər birinin və ya cəm halında butun şəxslərin əmlakına sığorta müddəti ərzində bir və ya bir neçə sığorta halı üzrə ziyan vurulması.

3.4.7. Yük üçün aviadaşıyıcının məsuliyyətinin sığortalanması muqaviləsi üzrə azadolma məbləğinin ölçüsü hər bir hava gəmisi üçün bağlanmış sığorta müqaviləsi ilə təyin edilir, bu zaman:

a) Azadolma məbdəğinin ölçülərindən artıq olmayan ziyanlar üçün əvəz ödənilməməlidir, burada hava gəmisinin məhv olması halı istisna təşkil edir, və bu zaman Sığortaçı tam həcmdə məsuliyyət daşıyır;

b) Əgər Sığortalı sığorta muddəti ərzində baş vermiş bir neçə sığorta hadisəsi üzrə ödənişlər icra edirsə, azadolma məbdəğinə bunlardan hər biri üzrə çıxılır.

## 4. ÜMUMİ İSTİSNALAR

4.1. Hava gəmisi sşağıdakı vəziyyətlərdə mövcud olduqda sığorta hadisəsi baş verirsə, aviadaşıyıcının mülki məsuliyyətinin sığorta muqaviləsi öz qüvvəsini dayandırır və sığorta əvəzi ödənilmir:

a) qanunvericilikdə qadağan edilmiş məqsədlər və ya sığorta müqaviləsində göstərilənlərdən fərqli olan məqsədlər üçün istifadə edildikdə:

b) müqavilədə göstərilən coğrafi hüdudlar xaricində yerləşdikdə, əgər bu qəza vəziyyəti və ya fors-major hadisələri ilə əlaqədar deyilsə;

c) səlahiyyəti olmayan və/və ya buna hüququ olmayan şəxslər tərəfindən uçuşda və ya yerdə idarə edildikdə;

ç) istənilən nəqliyyat vasitəsi ilə daşınıldıqda, burada aeroport hüdudları daxilində buksirləmə istisna təşkil edir;

d) hava gəmisinin baxılan növü üçün qoyulan tələblərə cavab verməyən aerodroma (meydançaya) enir və ya qalxır, əgər bu qəza vəziyyəti və ya fors-major hadisələri ilə əlaqədar deyilsə;

e) həddindən artıq yüklənmişdir və/və ya sərnişinlərin ümumi sayı baxılan hava gəmisi üçün nəzərdə tutulan sərnişinlərin maksimal sayından çoxdur və ya yüklənmənin hədd normaları və ya hava gəmisinin mərkəzləşdirmə qaydaları pozulmuşdur;

ə) nasaz halda uçuş yerinə yetirir, burada bu cür uçuşa Uçuş istismarı üzrə Rəhbərlik tərəfindən icazə verildiyi və bu uçuşun Sığortaçı ilə razılaşdırıldığı hal istisna təşkil edir;

f) əsaslı və ya qəza təmirindən sonra hava gəmisinin yoxlama uçuşu keçirilir.

4.2. Standart və əlavə sığorta təminatı aşağıdaki sənədlərlə istisna edilən risklərin sığorta təminatını nəzərdə tutmur:

a) küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəaya müvafiq olaraq - AVN.46B (hazırki Qaydalara əlavə [1] 1).

b) radiyasiyanın və radioaktiv çirklənmənin təsrindən yaranan risklərin istisna edilməsi haqda müddəaya müvafiq olaraq – AVN. 38A (hazırki Qaydalara əlavə [1] 2)

c) müharibə, qaçırma və digər aviasiya təhlükələrinə aid risklərin istisna edilməsi barədə müddəaya müvafiq olaraq –AVN. 48B (hazırki Qaydaları Əlavə[1] 3)

**Qeyd:** 4.2. bəndində göstərilmiş risklər zamanı aviadaşıyıcının mülki məsuliyyəti əlavə mükafat ödənilməklə xüsusi şərtlərlə sığorta edilə bilər.

4.3. Sığorta müqaviləsi istənilən müqavilə üzrə (bu qaydaların 3.2 və 3.3 bölmələrinin şərtləri üzrə verilmiş sərnişin bilet/baqaj qəbzi, əmtəə qaiməsindən fərqli olan) Sığortalının qəbul etdiyi məsuliyyətə və ya Sığortalının bəyan etdiyi hüquqlara münasibətdə qüvvədə deyildir və burada bu cür məsuliyyətin bu cür müqavilə olmadıqda belə Sığortalının üzərinə qoyula bildiyi hal istisna təşkil edir.

# 5. SIĞORTA HAQQI VƏ ONUN VERİLMƏSİ QAYDASI

5.1. Sığorta haqqı Sığortalı tərəfindən təqdim edilmiş məlumat əsasında Sığortaçı tərəfindən hesablanır və Sığorta Şəhadətnaməsində və ya sığorta müqaviləsinə qəbul edilmiş Əlavələrdə göstərilir.

5.2. Sığorta haqqı Sığortalı tərəfindən Sığortaçının təqdim etdiyi hesab və ya sığorta haqqının məbləği və ödənilmə qaydası barədə məlumatı özündə əks edən digər sənəd alındıqdan sonra ödənilir. Sığorta haqqı birdəfəlik və ya, tərəflərin razılaşmasına əsasən, hissə-hissə, Sığorta Şəhadətnaməsində və ya Sığorta Müqaviləsinə qəbul edilmiş Əlavələrdə qeyd olunan ödənişlər cədvəlinə müvafiq olaraq ödənilə bilər.

5.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, nəğdsız haqq-hesab zamanı sığorta haqqı Sığortalı tərəfindən tam məbləğdə, sığorta haqqı hissə-hissə ödənilirsə sığorta haqqının birinci ödənişi Sığortaçının təqdim etdiyi hesabın şərtlərinə müvafiq olaraq Sığortaçının bank hesabına köçürülməsi yoli ilə ödənilir.

5.4. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, nəğd haqq-hesab zamanı sığorta haqqı Sığortalı tərəfindən tam məbləğdə, sığorta haqqı hissə-hissə ödənilirsə sığorta haqqının birinci ödənişi Sığortaçının təqdim etdiyi qəbzin şərtlərinə müvafiq olaraq Sığortaçının kassasına və ya nümayəndəsinə verilməsi yoli ilə ödənilir.

5.5. Sığorta haqqının ödənilməsi günü aşağıdakılar hesab olunur:

- nəğdsiz haqq-hesab zamanı – pul vəsaitlərinin Sığortaçının hesabına daxil olması günü;
- nəğd haqq-hesab zamanı – pul vəsaitlərinin Sığortaçının kassasına və ya nümayəndəsinə verilməsi günü.

5.6. Sığorta haqqı və ya onun birinci hissəsi Sığortaçı tərəfindən təqdim olunmuş hesabda və ya sığorta haqqının məbləği və ödənilmə qaydası barədə məlumatı özündə əks edən digər sənəddə göstərilmiş müddət ərzində ödənilmədikdə, Sığortaçı sığorta müqaviləsindən imtina etmək və ya Sığortalı üçün əlavə ödəmə müddətini təyin etmək hüququna malikdir. Əgər sığorta hadisəsinin baş verməsi günü sığorta haqqı və ya onun birinci hissəsi müqavilənin şərtlərinə uyğun hələ də ödənilməyibsə, Sığortaçı öz öhdəliklərindən azad edilir.

5.7. Hissə-hissə ödənilən sığorta haqqının növbəti ödənişi ödənilmədiyi, vaxtından gec və ya az məbləğdə ödənildyi halda, Sığortaçının sığorta müqaviləsi üzrə öhdəlikləri sığorta haqqının ödənilməli gündən sonrakı növbəti 15 təqvim günü ərzində qüvvədə qalır və sığorta ödənişinin həyata keçirilməsi zamanı sığorta haqqının gecikdirilmiş (natamam həcmdə ödənilmiş) hissəsi Sığortaçı tərəfindən ödənişdən tutula bilər. Əgər həmin borc müqavilə ilə sığorta haqqının ödənilməsi günü kimi şərtləşdirilmiş gündən sonra 15 təqvim günü ərzində ödənilməyibsə Sığortaçı sığorta müqaviləsində göstərilən sığorta hadisələri üzrə məsuliyyət daşımır.

Sığortaçının məsuliyyəti borcun, yəni gecikdirilmiş (natamam həcmdə ödənilmiş) ödənişin, ödənildiyi gün gündüz saat 12:00-dan bərpa olunur və Sığortaçının məsuliyyəti bərpa olunduqdan sonra baş vermiş, sığorta müqaviləsində şərtləşdirilmiş sığorta hadisələrini əhatə edir.

5.8. Sığortalının sığorta haqqını ödəməməsi səbəbindən Sığortaçı tərəfindən sığorta müqaviləsinin ləğv edilməsi, Sığortalını Sığortaçıya, onun öz öhdəliklərini yerinə yetirdiyi müddət üzrə, sığorta haqqının ödənilməli olan hissəsini ödəməsindən azad etmir.

# 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI QAYDASI, QÜVVƏDƏ OLMA MÜDDƏTİ VƏ ONA XİTAM VERİLMƏSİ

6.1. Sığorta müqaviləsi Sığortalı və Sığortaçı arasında əldə edilmiş razılaşmadır və bu razılaşmaya görə Sığortaçı öhdəlik götürür ki, sığorta hadisəsi baş verdikdə sığorta ödənişi etsin, və Sığortalı öhdəlik götürür ki, sığorta haqlarını (mükafatı) müəyyən edilmiş müddətdə ödəsin.

6.2. Sığorta müqaviləsi Sığortalının Sığortaçı tərəfindən müəyyən edilmiş formada tərtib edilmiş yazılı ərizəsi əsasında bağlanır və bu ərizədə əsas məlumat kimi aşağıdakılar göstərilməlidir:

- Sığortalının adı və hüquqi ünvanı;
- Hava gəmilərinin siyahisi, onların bort (qeydiyyat) və zavod nömrələri, buraxılış ili;
- Uçuşların xarakteri və hər bir hava gəmisinin istismarının coğrafi rayonları;
- Riskin səviyyəsini müəyyən etmək üçün vacib əhəmiyyət kəsb edən əlavə məlumat (ərizənin tip formasına müvafiq olaraq).

Sığorta barəsində məsuliyyətin sığortalandığı hava gəmisinin sahibi olan müəssisənin direktoru tərəfindən və ya onun müvafiq səlahiyyətləri olan nümayəndəsi tərəfindən imzalanmalıdır.

6.3. Sığorta müqaviləsi tərəflər arasında razılaşdırılmış istənilən müddətə bağlanır və sığorta şəhadətnaməsinin verilməsi ilə təsdiq edilir. Sığorta şəhadətnaməsi 2 nüsxədə tərtib edilir və hər iki tərəfin imzaları və möhürləri ilə təsdiqlənir.

Sığorta barəsində ərizə və sığorta haqqının ödənişi barədə ödəniş tapşırığı, sığorta şəhadətnaməsi və Sığortaçının hesabı hazırki qaydalarla birlikdə sığorta muqaviləsinin sənədlər dəstini təşkil edir.

6.4. Sığorta muqaviləsi (sığorta təminatı) Sığorta Şəhadətnaməsində göstərilmiş sığortanın qüvvəyə minmə tarixində saat 24:00-da qüvvəyə minir və göstərilmiş sığorta təminatının qüvvədən düşmə tarixində saat 24:00-da qüvvədən düşmüş hesab edilir.

6.5. Sığorta müqaviləsinə dəyişiklər və əlavələr onun qüvvədə olduğu müddətdə yalnız tərəflərin razılığı ilə daxil edilə bilər və onlar ikitərəfli sənədlərlə rəsmiləşdirilirlər. Risklərin təfərrüatında və ya təbiyyətində əhəmiyyətli dəyişiklər baş verdikdə, ödənişin möhlət müddəti artdıqda, Sığortalı Sığortaçını dərhal bu barədə xəbərdar etməlidir və bu zaman Sığortaçı sığorta haqqının məbləğini artırmaq hüququna malikdir.

6.6. Müqaviləyə aşağıdaki hallarda xitam verilir:

6.6.1. Müqavilənin qüvvədə olma müddəti başa çatdıqda və Sığortaçı tərəfindən müqavilə üzrə Sığortalı qarşısındaki öhdəliklərin tam həcmdə yerinə yetirildiyi halda;

6.6.2. Sığortalı tərəfindən sığorta haqlarının müqavilədə göstərilən müddətlərdə ödənilməməsi;

6.6.3. Hüquqi şəxs olan Sığortalı ləğv edildikdə, və ya fiziki şəxs olan Sığortalı vəfat etdikdə, Sığorta haqqında qanunda və hazırki qaydalarda nəzərdə tutulmuş hallar istisna edilməklə;

6.6.4. Sığotaçının Azərbaycan Respublikası qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada ləğv edildiyi halda, əgər sığorta portfeli onun tərəfindən digər Sığortaçıya verilməmişdirsə;

6.6.5. Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş hallarda Sığorta müqaviləsinin qeyri –həqiqi olması barədə məhkəmə qərar qəbul etdikdə;

6.6.6. Sığorta müqaviləsi həm Sığortaçının, həm də Sığortalının 30 gün qabaqcadan yazılı xəbərdarlıq verməsi yolu ilə xitam edilə bilər.

6.6.6.1. Müqavilənin Sığortalının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını ona qaytarır; əgər bu tələb Sığortaçının sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını Sığortalıya bütünlüklə qaytarır.

6.6.6.2. Müqavilənin Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam olunması halında, Sığortaçı Sığortalının sığorta haqqlarını bütünlükdə qaytarır; əgər bu tələb Sığortalının sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış hissəsi üçün sığorta haqqını qaytarır.

6.6.6.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

6.6.6.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 6.6.6.1-ci və 6.6.6.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 7. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

7.1. Tərəflərin Sığorta müqaviləsi üzrə hüquq və vəzifələri Sığorta müqaviləsinin (şəhadətnamənin) şərtləri, hazırki qaydalar və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzim edilir.

**7.2. Sığortalının vəzifələri:**

a) Sığorta müqaviləsinin bütün şərtlərinin gözlənilməsi;

b) Sığorta müqaviləsi bağlanarkən, sığorta riskini qiymətləndirmək üçün əhəmiyyət kəsb edən və ona məlum olan təfərrüat barədə, və həmçinin, hər bir sığorta obyektinə münasibətdə bağlanmış və ya bağlanan bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;

c) müqavilənin quvvədə olduğu müddətdə sığortalanmış əmlaka dəyən ziyanın qarşısını almaq və ya azaltmaq üçün bütun tədbirləri görmək;

ç) sığorta haqqını vaxtında ödəmək.

d) Sığorta müqaviləsi üzrə hüquq və vəzifələr Sığortalı tərfindən tam və ya qismən üçüncü tərəfə verilə bilməz, burada Sığortalının yazılı formada təsdiq edilmiş razılığı olduğu hal istisna təşkil edir.
e) Sığorta müqaviləsində göstərilən bütün vacib dəyişikliklər barədə Sığortaçıya vaxtında xəbər verməli;
q) Sığortaçıya sığorta müqaviləsinin bağlanması ilə və müqavilənin qüvvədə olması müddəti ərzində onun müşayiət edilməsi ilə əlaqədar olan tədbirlərin keçirilməsi üçün zəruri olan şəraiti yaratmalı.

**7.3. Sığortalının hüquqları:**

a) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada sığorta müqaviləsinə xitam vermək;
b) Sığorta müqaviləsini (Sığorta Şəhadətnaməsini) itirdiyi halda onun yeni nüsxəsini (dublikatını) almaq;
c). Sığorta hadisəsinin qarşısı alınması və dəyə biləcək zərərin azalması üçün zəruri olan məlumat və məsləhətləri Sığortaçıdan almaq;

**7.4. Sığortaçının vəzifələri:**

a) Sığortaçı, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortalı haqqında və onun əmlak vəziyyəti haqqında məlumatı yaymamağa borcludur.
b) Sığortalıya Sığortaçı tərəfindən müəyyən edilmiş qaydada tərtib olunmuş sığorta müqaviləsinin nüsxəsini vermək və Sığortalını sığorta müqaviləsinin şərtləri ilə tanış etmək;
c) Sığortalıdan hadisə haqqında məlumat daxil olduqda baş vermiş hadisənin səbəblərini, xarakterini araşdırmaq, dəymiş zərərin miqdarını və ya ödəniləcək məbləği müəyyən etmək, və nəticədə hadisəni sığorta hadisəsi kimi tanıdıqda və ödənişin verilməsindən imtina üçün əsaslar olmadıqda müqavilə ilə müəyyən edilmiş müddət ərzində və qaydada sığorta məbləği(ləri) çərçivəsində sığorta ödənişini vermək;
ç) Sığorta ödənişinin verilməsindən imtina üçün əsaslar olduqda bu barədə Sığortalıya, səbəbləri göstərilməklə, yazılı şəkildə məlumat vermək;
d) Sığortalı tələb etdikdə, sığorta müqaviləsinin (Sığorta Şəhadətnaməsinin) və sığortanı təsdiqləyən digər sənədlərin yeni nüsxəsini (dublikatını) təqdim etmək;
e) Sığorta müqaviləsi ilə nəzərdə tutulan digər öhdəliklərini yerinə yetirmək.

**7.5. Sığortaçının hüquqları:**

a) Sığortalının verdiyi informasiyanın, və həmçinin, Sığortalı tərəfindən sığorta müqaviləsinin tələblərinin yerinə yetirilməsinin yoxlanması, səlahiyyətli orqanlara sorğu göndərilməsi;

b) Sığorta müqaviləsi qüvvəyə mindikdən sonra sığorta edilmiş hava gəmiləri ilə baş verən aviasiya hadisələri və qəfil halların tədqiqatında iştirak etmək, Sığortalı

tərəfindən onların istismarı üzrə normativ – texniki sənədlərin tələblərinin gözlənilməsini yoxlamaq.

**7.6. Sığorta hadisəsi baş verdikdə Sığortalı aşağıdakıları etməlidir:**

a) əlavə iddiaların qaldırılması üçün səbəb ola bilən qəfil hadisə ilə əlaqədar olan itkilərin azaldılması üçün dərhal tədbirlər görməli;

b) ziyanının əvəzinin ödənilməsi üzrə iddiaların qaldırılması üçün səbəb ola biləcək qəfil hadisə barəsində ona məlum olan andan dərhal sonra Sığortaçıya bildirməli;

c) üç gün ərzində hadisənin bütün məlum olan tərəfləri göstərilmiş yazılı məlumat göndərməklə sığorta hadisəsinin baş verməsi haqqında Sığortaçını dərhal xəbərdar etməli;

ç) ziyan üçün qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyan şəxslərə qarşı Sığortaçının subroqasiya tələb hüququnun təmin edilməsi üçün tədbirlər görməli;

d) sığorta hadisəsi üzrə bütün sonrakı informasiyanın ötürülməsi və Sığortaçıya zəruri olan köməyin göstərilməsi;

e) Sığortaçıya onun tələbi ilə sığorta hadisəsi ilə əlaqədar olan məlumatı, o cümlədən kommersiya sirrini təşkil edən məlumatları çatdırmalı;

ə) Sığortaçının maraqlarının əleyhinə yönəlmiş hərəkətlər etməməli, və həmçinin, Sığortaçının yazılı razılığı olmadan baxılan sığorta hadisəsi ilə əlaqədar olan heç bir öhdəlik götürməməli, məsuliyyəti boynuna almamalı və hər hansı ödəniş etmək barədə vəd verməməlidir. Burada xilasetmə işlərinin təşkili üzrə hərəkətlər, və həmçinin, bu bəndin a) və ç) paraqraflarında sadalanan tədbirlərin təmin edilməsi üçün görülən işlər istisna təşkil edir.

7.7. Sığortalı Sığortaçıya (sonuncunun tələbi ilə) iddiaların məhkəməyə qədərki və məhkəmə qaydasında həll edilməsi üçün öz səlahiyyətini ötürməlidir.

7.8. Sığortaçı tərəfindən sığorta ödənişi verildikdən sonra sığorta hadisəsi üzrə ziyan üçün qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyan üçüncü şəxslərə münasibətdə Sığortalının reqres tələb hüquqları Sığortaçıya keçir.

## 8. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNİN QAYDASI VƏ ŞƏRTLƏRİ

8.1. Sığorta ödənişi Sığortaçı tərəfindən ödəniş haqqında Sığortalının yazılı ərizəsi və Sığortaçının tərtib etdiyi sığorta aktı (rəyi) əsasında icra edilir. Sığortaçının yazılı razılığı olmadan Sığortalının gələcək sığorta ödənişlər hesabına icra etdiyi ödənişlər nəzərə alınmır.

8.2. Sığorta aktı Sığortaçı və ya onun səlahiyyət nümayyəndəsi tərəfindən tərtib edilir. Zəruri olduqda Sığortaçının hüququ vardır ki, sığorta hadisəsinin səbəb və təfərrüatını aydınlaşdırsın.

8.3. Sığortalı sığorta əvəzinin ödənilməsi üçün ərizə ilə birlikdə Sığortaçıya aşağıdakı sənədləri (əslini və ya təsdiq edilmiş sürətini) təqdim etməlidir;

a) sığorta hadisəsinin təfərrüatına, onun səbəblərinə, ziyanın ölçüsünə aid olan sənədlər (dövlət və idarə komissiyalarının rəyləri, ziyanın məbləğinin əsaslandırılması və s. bu cür sənədlərə aid edilə bilər) və s.

b) üçüncü şəxslərin, və ya onların hüquqi varislərinin Sığortalıya qarşı yazılı iddiası, Sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədlər əlavə edilməklə;
c) üçüncü şəxslərin xeyrinə ziyanın məbləğinin Sığortalıdan tutulması barədə məhkəmə orqanlarının qərarları (və ya onun surəti) (əgər bu sənəd Sığortaçı tərəfindən tələb edilərsə).

8.4. Sığorta aktı konkret sığorta hadisəsi üzrə yuxarıda göstərilən sənədlərin tam dəsti və tələb olunan digər sənədlər Sığortaçıya verildikdən sonra bir ay müddətində Sığortaçı tərəfindən tərtib və təsdiq edilir və sığorta ödənişi həyata keçirilir.

**Bununla bərabər:**

a) Sığortaçı dövlət orqanlarından əlavə informasiya alınması və/və ya Sığortaçının məxsusi tədqiqatının aparılması tələb edilirsə o, bu barədə Sığbortalıya məlumat verməklə bu müddəti üç ay müddətinə uzada bilər;
b) Sığortaçının hüququ vardır ki, sığorta hadisəsisinin özü tərəfindən məxsusi qiymətləndirilməsi əsasında baş verən hadisənin rəsmi tədqiqatı başa çatana qədər sığorta aktını təsdiq etsin.

8.5. Əgər Sığortalının mülki məsuliyyəti bir neçə sığortaçı tərəfindən sığortalanmışdırsa (ikiqat sığorta), Sığortaçı ödənməli olan ziyanın sığorta müqaviləsində göstərilən riskin bütün sığorta müqavilələri üzrə müəyyən edilmiş ümumi məbləğdə onunla bağlanmış olan sığorta müqaviləsindəki sığorta məbləğinin payından çox olmayan payını ödəyir.

8.6. Sığortaçı tərəfindən sığorta ödənişinin (təminatının) ödənilmə müddəti Sığortaçı tərəfindən ziyanın ödənilməsi üzrə öhdəliyin qəti müəyyən edildiyi gündən başlayır və Sığortaçı tərəfindən sığorta aktının imzalanması tarixi ilə müəyyən edilir.

8.7. Eyni səbəbdən yaranmış olan bir neçə ziyan bir sığorta hadisəsi kimi nəzərdən keçirilir.

8.8. Əgər Sığorta müqaviləsində məsuliyyətin cəm limiti nəzərdə tutulmuşdursa, Sığortaçı tərəfindən sığorta əvəzi müəyyən edilmiş məsuliyyət limitindən aşağı ölçüdə ödənildikdə, sığorta muqaviləsi, sığorta hadisəsinə qədər mövcud olan məsuliyyət limiti ilə icra edilmiş sığorta ödənişlərinin fərqinə bərabər olan ölçüdə məsuliyyət limiti ilə davam edir, və ya yeni şərtlərlə yenidən bağlanır.

8.9. Əgər vurulmuş ziyan digər şəxslər tərəfindən kompensasiya edilmişdirsə, Sığortaçı sığorta müqaviləsi ilə ödənilməli olan məbləğlə digər şəxslərdən alınmış və ya təyin edilmiş kompensasiya arasındaki fərqi ödəyir. Sığortalı bu cür kompensasiyalar barəsində Sığortaçıya məlumat verməlidir.

## 9. SIĞORTA ÖDƏNİŞİNİ VERMƏKDƏN İMTİNA VƏ YA ONUN AZALDILMASI

9.1. Sığortaçının hüququ vardır ki, hazırki qaydaların «İstisnalar» bölməsində göstərilmiş hallarda, və həmçinin, aşağıdakı hallarda sığorta ödənişindən imtina etsin:

a) Sığortalının (Faydalanan şəxsin) sığorta hadisəsinin baş verməsinə yönəldilmiş qərəzli hərəkətlər etməsi;
b) Sığortalı tərəfindən sığorta hadisəsi ilə birbaşa səbəbiyyət əlaqəsində olan cinayətin törədilməsi;

c) uçuş və ya texniki heyət tərəfindən Uçuş istismarı üzrə Rəhbərliyin və digər rəhbər sənədlərin tələblərinin kobud şəkildə pozulması, bir şərtlə ki, bu pozulma sığorta hadisəsinin baş verməsinə səbəb olmuşdur;

ç) Sığortalı tərəfindən Sığortaçıya sığorta obyekti və ziyanın ölçüləri barəsində bilərəkdən yalan məlumat verilməsi.

9.2. Əgər Sığortalı Sığortaçı tərəfindən əvəzi ödənilən ziyan üçün qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyan şəxslərə münasibətdə Sığortaçının subroqasiya tələb hüququnu təmin etmək üçün tədbir görməmişdirsə, Sığortaçı bu cür tələb hüquqlarının ölçüsünə bərabər olan hissədə sığorta ödənişinin alınması hüququnu itirir.

9.3. Əgər Sığortalı sığorta hadisəsi nəticəsində daha sonrakı ziyanın qarşısını almaq üçün tədbir görmürsə və bu ziyanını artmasına gətirib çıxarırsa, bu halda Sığortaçı sığorta ödənişinin məbləğini bu əlavə ziyanın məbləği qədər azaltmaq hüququna malikdir.

9.4. Əgər qanuna görə və ya hazırki Qaydalara görə Sığotalını sığorta ödənişi almaq hüququndan məhrum edən təfərrüat aşkar edilərsə, o, sığorta ödənişinin alınnış məbləğini Sığortaçıya qaytarmağa borcludur.

## 10. MƏLUMAT VƏ XƏBƏRDARLIQLARIN ÇATDIRILMASI

Müqavilə tərəfləri bir birinə yolladığı bildiriş və xəbərdarlıqlara dair aşağıdakı tələblərə riayət etməlidir:

a) müqaviləyə müvafiq olaraq göndərilən hər hansı məlumat, bildiriş, xəbərdarlıq və ya razılıq yazılı şəkildə tərtib olunmalı və şəxsən, qabaqcadan ödənilmiş poçt və ya kuryer (çatdırma barədə bildiriş ilə), faks və ya teleks vasitəsi ilə müqavilədə göstərilmiş ünvanlara göndərilməlidir.

b) Tərəflərin ünvanları və/və ya rekvizitləri dəyişdiyi halda onlar bir birinə bu barədə əvvəlcədən məlumat göndərməlidirlər. Əgər sığorta müqaviləsi üzrə tərəf digər tərəfin ünvan və ya rekvizitlərinin dəyişməsi barədə məlumatlandırılmayıbsa, keçmiş ünvana göndərilən bütün bildiriş və xəbərdarlıqlar keçmiş ünvana çatdırıldığı andan qəbul olunmuş hesab olunurlar.

## 11. ƏRİZƏ FORMASI

11.1. Sığorta müqaviləsi Sığortalı (Faydalanan şəxs) tərəfindən doldurulmuş Ərizə Forması əsasında bağlanılır və sığorta müqaviləsinin ayrılmaz hissəsi sayılır.

11.2. Sığorta müqaviləsinin bağlanmasından sonra Sığortalı (Faydalanan şəxs) tərəfindən sığorta hadisəsinin baş verməsi ehtimalı üzrə vacib məlumatın və ya onun baş verməsindən dəyə biləcək zərərlərin həcmi (sığorta riski) barəsində Sığortaçıya yanlış məlumatın verilməsi aşkarlanarsa, və sığorta müddəti ərzində barəsində yanlış məlumatlar verilən hallar ilə əlaqədar olan sığorta hadisəsi baş verərsə, belə faktlar sığorta ödənişinin verilməməsinə müqavilənin etibarsız hesab edilməsinə gətirə bilər.

## 12. XÜSUSİ ŞƏRTLƏR

Hazırkı qaydaların əsasında bağlanılmış sığorta müqavilələrinə sığorta qanunvericiliyinə zidd olmayan xüsusi şərtlər əlavə oluna bilər.

## 13. MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

Sığorta müqaviləsi ilə bağlı bütün məsələlər, o cümlədən tərəflər arasında yaranan fikir ayrılığı və mübahisələr bir qayda olaraq danışıqlar yolu ilə həll edilir. Əgər danışıqlar yolu ilə nəticə əldə edilməzsə, mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll olunmalıdır.

## ƏLAVƏLƏR

**Əlavə 1.** Küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəa (AVN.46B).

**Əlavə 2.** Radiyasiya və radioaktiv çirılənmənin təsirindən yaranan risklərin xaric edilməsi barədə müddəa (AVN 38A).

**Əlavə 3.** Müharibə, qaçırma və digər aviasiya təhlükələri risklərinin xaric edilməsi barədə müddəa (AVN 48B).

## ƏLAVƏ 1.

Küyün, çirklənmənin və digər təhlükələrin təsirinin xaric edilməsi barədə müddəa (AVN 46B).
Aşağıdaki təsirlər nəticəsində birbaşa və ya dolayı yolla törənmiş və ya yaranmış ziyanlar üzrə sığorta ödənişləri icra edilmirlər:

a) küyün (insan qulağının eşitdiyi və ya eşitmədiyi), vibrasiyanın, akustik uğultunun və/və ya buna bənzər digər təzahürlərin təsiri;
b) istənilən çirklənmələrin və zəhərlənmələrin;
v) elektrik və ya elektromaqnit maneələrin təsiri;
q) mülkiyyətə dəyən ziyan (təyyarənin idarəsindəki nasazlıqlardan yaranmış olan partlayış, toqquşma və ya uçuşda qəza vəziyyəti nəticəsində yaranmış olan və ya baş vermiş ziyan istisna edilməklə).

Sığortaçı tərəfindən aşağıdakilar üzrə tədqiqat aparılmasına və onlardan müdafiə olunmağa ehtiyac yoxdur:

a) 1-ci bənd üzrə itkilərlə əlaqədar olan iddialar, və ya
b) 1-ci bənd üzrə itkilər üzrə iddialarla birlikdə cəm halda baxılan iddia və ya iddialar (bax aşağıda «Qarışıq risklər»).

Sığortaçı Qarışıq risklərə münasibətdə (sübut edilmiş itki və məsuliyyət limitinə müvafiq olaraq) qismən aşağıdakı bəndlər üzrə Sığortalıya ödənişlər edir;

a) Sığortalıya əvəz ödəmək üçün müəyyən edilmiş ziyanlar;
b) Sığortalıya çatmalı olan qonorarlar və müdafiə üzrə xərclər.

Burada göstərilən heç bir şey «Radiasiya və radioktiv çirklənnmənin təsirinin xaric edilməsi haqqında müddəaya» və qaydalara olan digər əlavələrə aid edilmir.

## ƏLAVƏ 2.

Radiasiya və radioaktiv çirklənmənin təsirindən yaranan risklərin xaric edilməsi barədə müddəa ( AVN 38A).
Aşağıdakı hallar sığorta hadisələrinə aid edilmir və onlar üzrə sığorta ödənişi verilmir:

a) ionlaşdırıcı radiasiyanın və ya radioaktiv çirlənmənin birbaşa və ya dolayı yolla təsiri nəticəsində sağlamlığa (bədən xəsarəti, ölümcül və ya digər yaralanma) və ya əmlaka dəyən hər hansı ziyan;
b) əgər hər hansı məsuliyyət birbaşa və ya dolayı yolla ionlaşdırıcı radiasiyanının və radioaktiv çirklənmənin təsirindən yaranmışdırsa.

Yalnız aşağıdakı şərtlər daxilində hər hansı radioaktiv materialın İATA qaydalarına muvafiq olaraq daşınması zamanı ionlaşdırıcı radiasiya və ya radioaktiv çirklənmə nəticəsində birbaşa və ya dolayı yolla yaranan və ya bunun nəticəsi olan ziyan, dağılma, xərclər və ya hüquqi məsuliyyət üçün sığorta ödənişi verilir (bu müddəanın 1-ci bəndinin təsir dairəsi məhdudlaşdırılır):

a) Sığortaçının məsuliyyətinin qabaqcadan müəyyən edilmiş şərti vardır, və hər hansı radioaktiv materialın daşınması İATA-nın onların hava yolu ilə daşınmasına aid olan mövcud qaydalarına tam müvafiq olacaqdır;

b) Sığortalıya hər hansı iddia (ziyan üzrə) təqdim edilmişdir və bu iddia müqavilənin qüvvədə olduğu müddətdə baş verən hər hansı qəza və ya bədbəxt hadisənin nəticəsidir və Sığortalının hər hansı bu cür iddiası, Sığortaçıya qarşı və ya Sığortalıya qarşı iddia irəli sürən şəxsə qarşı, iddiaya səbəb olan qəfil hadisədən sonrakı üç il ərzində qaldırılmışdır;

v) radioaktiv çirklənmənin hava ilə təhlükəli yüklərin təhlükəsiz daşınması üzrə İKAO-nun texniki təlimatlarında müəyyən edilmiş maksimal buraxıla bilən səviyyədən çoxdur;

q) bu bənd üzrə sığorta müdafiəsi 7 gün əvvəl bildiriş vermiş olan Sığortaçı tərəfindən istənilən zaman kəsilə bilər.

## ƏLAVƏ 3.

Müharibə, qaçırma və digər aviasiya təhlükələri risklərinin xaric edilməsi barədə müddəa (AVN. 48B).

Aşağıdakı səbəblərdən yaranmış itkilər üzrə sığorta ödənişi verilmir:

a) müharibə, müdaxilə, xarici düşmənlərin hərəkətləri, döyüş əməliyyatları (müharibənin elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibələri, qiyamlar, inqilablar, üsyanlar, hərbi vəziyyət və ya qanunsuz yolla ələ keçirmək cəhdləri;

b) atom və ya nüvə və/və ya termonüvə və ya digər bənzər reaksiyalar və ya radioaktiv qüvvələr və ya materiallar istifadə edilməklə istənilən döyüş silahının istənilən partlayışı;

v) tətillər, hərc-mərclik, vətəndaş itaətsizliyi və ya istehsal qayda – qanunlarının pozulması;

q) bir və ya bir neçə nəfərin hər hansı hərəkətləri (onların öz adlarından çıxış etməsi və ya hər hansı dövləti təmsil etməsindən, siyasi və ya terrorçu motivlərlə törədilən hadisə olmasından, bu əməllərdən törənən itki və ziyanların təsadüfi və ya qərəzli olmasından asılı olmayaraq);

d) istənilən hədə-qorxu, sabotaj və ya diversiya aktları;

e) konfiskasiya, milliləşdirmə, həbs qoyulması, azadlıqdan məhrum etmə, mənimsəmə, mülkiyyət hüququ ilə və ya istifadə üçün və ya hər hansı mülki, hərbi və ya faktiki idarə edən hökümətin, və ya ictimai və ya yerli hakimiyyətin sərəncamı üzrə rekvizisiya;

j) gəminin bortunda, Sığortalı tərəfindən dəstəklənməyən bir şəxsin və ya bir qrup şəxsin törətdiyi qaçırma və ya hər hansı qeyri – qanuni ələ keçirmə və ya uçuş zamanı hava gəmisi və ya ekipaj üzərində zorakı nəzarət (o cümlədən, bu cür ələ keçirmə və ya nəzarətin istənilən cəhdi).

Bundan əlavə, yuxarıda göstərilən təhlükələrdən birinin nəticəsində hava gəmisi Sığortalının nəzarətindən xaricdə yerləşdiyi zaman yaranan ziyanlar üçün ödəniş verilmir.

Hava gəmisi Sığortalının sığorta müqaviləsinin coğrafi hüdudlarının xaricində olmayan aerodromuna müvəffəqiyyətlə və uçuşlar üçün tam yararlı qayıtdıqda hava gəmisi

Sığortalının nəzarəti altına qayıtmış hesab ediləcəkdir (müvəffəqiyyətli qayıdış kimi helə bir hal başa düşülür ki, hava gəmisi söndürülmüş mühərriklərlə dayanacaqda dayanmışdır və üçüncü şəxslər tərəfindən bunu etmək üçün heç bir zorakı məcbur etmə hərəkəti edilmir).

## “Meqa Sığorta” Açıq Səhmdar Cəmiyyəti

### Hava nəqliyyatı vasitələrin üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası üzrə tarif dərəcələrinin hesablanması və iqtisadi əsaslandırılması

Bu komponent üzrə hesabat üçün məlum düsturla daxil olan kəmiyyətlərin aşağıdakı qiymətləri götürmüşdür:

gözlənilən müqavilələrin sayı n=10;

bir müqavilə üzrə orta sığorta məbləği S= 20 000 manat; orta sığorta ödənişi Sö= 3 000 manat; sığorta hadisəsinin başvermə ehtimalı=0.023; - Y=0.90 və A(Y)=1.3

Bu komponent üzrə netto-dərəcənin əsas hissəsi
T4, əs=100 * 3 000 * 0.023/20 000= 0.35;

Risk üstəliyi isə

T4,r=1.2 * 0.35 * 1.3 * Kök 1-0.023/10 * 0.023=1.11 manat olar.

Bu komponent üzrə ümumi netto-dərəcə

T4, n=T4, əs+T4, r= 0.35+1.11=1.46 manat təşkil edər.

Tarif dərəcəsinin strukturu: 80%-netto-dərəcə, 15%-işlərin aparılması xərci, 2%- qarşısıalmma tədbirləri üçün, 3%- mənfəət.

Bu komponent üzrə brutto-dərəcə üçün məlum: T4, b=T4, n/(l-f) düsturundan (f- yüklənmə və burada f=20%) istifadə etməklə T4,b=1.82 manat alınq.

Sığortaçımn bu tariflərə, sığorta riskinin dərəcəsini müəyyən etməyə əhəmiyyətli təsiri olan şəraitlə bağlı müəyyən düzəlişlər etmək hüququ vardır.